# İxtisas üzrə Məmnuniyyət Sorğusu

Tarix: **28.04.2025-04.05.2025**

Bu hesabat **Sosial Elmlər və Beynəlxalq münasibətlər, Psixologiya** məktəbində təhsil alan tələbələrin ixtisas məmnuniyyəti səviyyəsinin qiymətləndirilməsi məqsədilə keçirilmiş sorğunun nəticələrinə əsaslanır. Sorğuda ümumilikdə **197 tələbə** iştirak etmişdir. Nəticələr tədris prosesinin təkmilləşdirilməsi və idarəetmə qərarlarının əsaslandırılması məqsədilə istifadə olunacaqdır. İxtisaslar:
(**Beynəlxalq münasibətlər, Regionşünaslıq, Politologiya, Dövlət və bələdiyyə idarəetməsi, Sosial İş, Təhsildə sosial-psixoloji xidmət, Psixologiya**)

**1. Tədris olunan fənlərin ixtisasım üzrə nəzəri və praktiki bilikləri inkişaf etdirdiyini düşünürəm:**




**2. Təhsil müddətində əldə etdiyim bilik və bacarıqlar gələcək peşə fəaliyyətim üçün kifayət qədər faydalıdır:**




**3. Təhsil zamanı istifadə olunan resurslar (kitablar, məqalələr, araşdırmalar və s.) müasir tələblərə uyğundur:**



## 4. Tədris prosesində analitik düşünmə, problemləri həll etmə və qərarvermə bacarıqları inkişaf etdirilir:




## 5. Seçdiyim ixtisasın əmək bazarında rəqabətə davamlı və tələbatlı olduğuna inanıram:




# 6. İxtisas üzrə təhsil və ümumi tədris prosesi ilə bağlı əlavə fikir və təklifləriniz:

**Tədris Sistemi və Metodları**

- Tələbələrin əksəriyyəti mövcud tədris sistemində nəzərəçarpacaq boşluqların olduğunu bildirir. Müəllimlərin müasir və effektiv tədris metodlarından istifadə etmədiyi, əzbərçiliyin üstünlük təşkil etdiyi qeyd olunur. Praktiki məşğələlərə, real layihələrə və tətbiq yönümlü yanaşmalara üstünlük verilməsinin vacibliyi vurğulanır.
- Bəzi fənlərin ixtisasla uyğunluğunun zəif olması və bu fənlərin tədris proqramında yersiz yer tutduğu düşünülür. Belə fənlərin daha faydalı və aktual dərslərlə əvəzlənməsi təklif olunur.

**Müəllim-Tələbə Əlaqəsi və Qiymətləndirmə**

- Müəllimlərin daha ədalətli qiymətləndirmə aparmasına ehtiyac olduğu bildirilib.
- Tələbələr müəllim-tələbə ünsiyyətinin gücləndirilməsinin və qarşılıqlı anlaşmanın artırılmasının tədris keyfiyyətinə müsbət təsir göstərəcəyini düşünürlər.

**Tədris Resursları və Texniki İmkanlar**

- Bəzi fənlərin tədrisinə başlamazdan əvvəl tədris materiallarının yetərsiz və natamam olması narahatlıq doğurur.
- Kompüter və internet imkanlarının zəifliyi qeyd olunub. Tələbələr bu sahədə texniki infrastrukturun yaxşılaşdırılmasını istəyirlər.

**Təcrübə və Praktika İmkanları**

- Tələbələr praktik məşğələlərin və sahə təcrübələrinin sayının artırılmasının zəruriliyini qeyd edirlər. Xüsusilə, psixologiya ixtisası üzrə praktikanın vacibliyi dəfələrlə vurğulanıb.
- Tələbələr 3-cü kursdan etibarən mütəmadi praktikaya göndərilmənin faydalı olacağını bildirirlər.

**İxtisas Yönümlü Tədbirlər və Əlavə Fəaliyyətlər**

- Tanınmış mütəxəssislərlə – diplomatlar, beynəlxalq təşkilat nümayəndələri və təcrübəli psixoloqlarla görüşlərin təşkili tələbələrə motivasiya verə biləcəyi qeyd olunur.
- Psixologiya sahəsi üzrə ixtisaslaşdırılmış klubun yaradılması və təlimlərin təşkili təklif edilib.

**Tələbə Rifahı və Sosial İmkanlar**

- Tələbələr universitetdə bufet xidmətinin bərpa olunmasını dəfələrlə vurğulayıblar. Dərslərarası fasilələrdə oturmaq və qidalanmaq üçün uyğun şəraitin olmaması narahatlıq doğurur.
- İkinci ali təhsil alan tələbələr dərs cədvəllərinin onların vəziyyəti nəzərə alınaraq tərtib olunmasını istəyirlər.

**Universitet Siyasəti və İdarəetmə ilə Bağlı Narahatlıqlar**

- Bəzi tələbələr universitetin qayda və tələblərini məktəb sisteminə bənzətdiklərini və bu yanaşmanın ali təhsilin ruhuna uyğun olmadığını düşünürlər.
- Rus bölməsi tələbələri bəzi fənlərin ingilis dilində tədrisinin onların hüquqlarını pozduğunu qeyd ediblər.
- Kollekviumların imtahan formatında keçirilməsi və bu sistemin digər universitetlərdə mövcud olmaması narazılıq doğurur. Alternativ olaraq layihə və praktiki tapşırıqlara üstünlük verilməsi təklif olunur.
- Tələbələr yüksək göstəricilərə malik olsa da, ödənişli əsasda təhsil alanlara təqaüd verilməməsinin ədalətsiz olduğunu bildiriblər.

**İnam və Etimad Məsələləri**

- Bəzi tələbələr universitetin sorğularda toplanan fikirlərə real reaksiya vermədiyini, verilən vədlərin yerinə yetirilmədiyini düşünür və bu səbəbdən bu cür təşəbbüslərə qarşı inamsızlıq ifadə edirlər.